# Avropa Yenidənqurma və İnkişaf Bankı haqqında məlumat

**Ümumi məlumat.** Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) 1991-ci il 28 mart tarixində Mərkəzi və Şərqi Avropada yardıma ehtiyacı olan post-sosialist ölkələrində bazar iqtisadiyyatına keçid prosesinə və özəl sektorun canlandırılmasına yardım məqsədilə yaradılmışdır. AYİB hazırda regionda ən böyük investor rolunu oynayır və öz maliyyə vəsaitlərindən başqa digər əhəmiyyətli birbaşa investisiyaları da özündə cəmləşdirir. AYİB-nin 77 səhmdarı[1] (75 ölkə, həmçinin Avropa İttifaqı və Avropa İnvestisiya Bankı) mövcuddur. Lakin, dövlət sektoruna malik səhmdarlarının olmasına baxmayaraq, Bank əsasən digər kommersiya tərəfdaşları vasitəsilə özəl sektora investisiya yatırır. AYİB bank, sənaye və biznes sektoru üçün layihələri maliyyələşdirir. O həmçinin özəlləşdirməyə dəstək, dövlət müəssisələrinin restrukrizasiyası və bələdiyyə xidmətlərinin təkmilləşdirilməsi istiqamətində dövlət müəssisələri ilə də əməkdaşlıq edir. Bankın mənzil qərargahı London şəhərində yerləşir. AYİB-nin 38 ölkədə ofisləri fəaliyyət göstərir.

**Fəaliyyəti.** AYİB dünya kapital bazarlarında geniş çeşidli maliyyə xidmətləri təqdim edən və AAA bank reytinqinə malik beynəlxalq maliyyə qurumudur. AYİB öz mandatına əsasən yalnız demokratik prinsiplərə söykənən ölkələrlə əməkdaşlıq edir. Hal-hazırda AYİB 38 üzv ölkəyə[2] investisiya ayırır. Bununla yanaşı, Bankın Təsis Sazişinə onun coğrafi mandatını Orta Şərq və Şimali Afrika ölkələrinə doğru genişləndirməklə Misir, Tunis, Mərakeş və İordaniyanın da əməliyyat ölkələrinin siyahısına daxil edilməsini nəzərdə tutan dəyişiklik Rəhbərlər Şurasının 2011-ci ilin 30 sentyabr tarixli qərarı ilə təsdiq edilmişdir. Son illərdə Çin, Hindistan, San Marino, Liviya, Birləşmiş Ərəb Əmirlikləri və Əlcəzair Banka üzv qəbul olunmuşdur.

Bank əsasən istiqrazların emissiyası hesabına vəsaitlər cəlb edir. Bankın fərqliliyi ondan ibarətdir ki, Bank investisiya layihələrinə geniş həcmdə milli valyutalar cəlb edir. Bütün investisiya layihələrində Bank bazar iqtisadiyyatının formalaşması, özəl sektora yardım məqsədilə zəruri infrastrukturun inkişaf etdirilməsi, yerli kapitalın cəlb edilməsi və s. istiqamətlərdə dəstək olur.

2024-cü il 31 dekabr tarixinə olan maliyyə hesabatına[3] əsasən, hazırda Bankın nizamnamə kapitalı 34,0 mlrd. avroya bərabərdir ki, bunun da 30,98 mlrd. avro (7,44 mlrd. avro ödənilmiş – paid-in və 23,55 mlrd. avro çağırıla bilən - callable kapital olmaqla) təşkil edən hissəsinə səhmdarlar tərəfindən abunə yazılışı həyata keçirilmişdir. Nizamnamə kapitalı hər birinin nominal dəyəri 10,0 min avro olmaqla 3 400 000 ədəd səhmdən ibarətdir. Bank tərəfindən təkcə 2024-cü ildə 584 layihənin icrasına 16,6 mlrd. avro məbləğində vəsait ayrılmışdır. Ümumilikdə isə Bank 1991-2024-cü illər ərzində 214,0 mlrd. avro dəyərində olan 8 818 layihəni[4] maliyyələşdirmişdir.

**Təşkilatı struktur.** Bankın ali icraedici orqanı – Rəhbərlər Şurasıdır. Şurada hər səhmdar ölkə öz nümayəndəsi ilə təmsil olunur və adətən nümayəndə rolunda ölkənin maliyyə naziri çıxış edir.

Bankın strateji idarəedilməsi Direktorlar Şurası tərəfindən icra olunur. Direktorlar Şurası AYİB-nin direktivlərinin realizasiyasına və Bankın ümumi fəaliyyətinə cavabdehlik daşıyır.

Bankın Prezidenti Rəhbərlər Şurası tərəfindən 4 il müddətinə sadə səs çoxluğu ilə seçilir. Prezident eyni zamanda, ikinci müddətə də seçilə bilər. 2020-ci ilin noyabr ayından bu vəzifəni Fransadan olan xanım Odile Renaud-Basso icra etməkdədir (2024-cü ildə yenidən seçilərək).

**AYİB və Azərbaycan.** Azərbaycan AYİB-yə 1992-ci il 25 sentyabr tarixində üzv seçilmişdir və o vaxtdan etibarən AYİB Azərbaycanda enerji, nəqliyyat, su, bankçılıq, aqrobiznes və ümumi sənaye kimi sahələri əhatə edən ölkə və regional əhəmiyyətli layihələrin həyata keçirilməsini dəstəkləmişdir. Bununla yanaşı, AYİB ölkədə institusional inkişafın və rəqabətliliyin artırılması məqsədilə maliyyə və texniki yardım göstərmişdir. Hazırda AYİB ilə tərəfdaşlıq 2025-2030-cü

---

[1] https://www.ebrd.com/shareholders-and-board-of-governors.html
[2] https://www.ebrd.com/home/what-we-do/where-we-invest.html
[3] https://www.ebrd.com/home/news-and-events/publications/financial-report/financial-report-2024.html
[4] https://www.ebrd.com/content/dam/ebrd_dxp/assets/pdfs/publications/ebrd-investments-1991-2024.xlsx

illəri əhatə edən, 5 illik Ölkə Strategiyası[5] ilə tənzimlənir. Strategiya aşağıdakı strateji prioritet sahələrin inkişafını əhatə edir:

• Daha güclü, rəqabətqabiliyyətli və inklüziv özəl sektor və təkmilləşdirilmiş idarəetmə vasitəsilə iqtisadi müxtəlifliyin artırılmasını təşviq etmək;

• Yaşıl iqtisadiyyata keçidi sürətləndirmək və regional əlaqəliliyi inkişaf etdirmək.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 856 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının iqtisadiyyat naziri və Azərbaycan Respublikasının maliyyə naziri AYİB-nin Rəhbərlər Şurasında Azərbaycan Respublikası üzrə müvafiq olaraq rəhbər və rəhbərin müavini (alternativ rəhbər) təyin edilmişlər.

AYİB-nin Bakıdakı rezident nümayəndəliyi 1995-ci ilin dekabrında yaradılmışdır. 2023-cü ildən etibarən nümayəndəliyə xanım Natali Mouravidze rəhbərlik edir. Azərbaycan hazırda AYİB-nin Direktorlar Şurasında[6] Türkiyənin rəhbərlik etdiyi Türkiyə, Rumıniya, Moldova, Qırğız Respublikası və Əlcəzairdən ibarət ölkələr qrupuna daxildir. Qrupun direktoru Yasemin Girici, alternativ direktoru isə Lusian İsardır.

Ölkəmiz AYİB-nin səhm kapitalında 30,01 mln. avro (6,26 mln. avro ödənilmişdir) dəyərində səhmə abunə yazılmışdır ki, bu da Bankın ümumi səhm kapitalının 0,1%-ni təşkil edir. Hal-hazırda Azərbaycan Respublikasının Bankdakı payı 3001 səhmdən ibarətdir.[7]

2025-ci il 25 iyul tarixinə olan məlumata[8] əsasən, Azərbaycanda fəaliyyətə başladığı dövrdən Bank tərəfindən ölkəmizə 199 layihə üzrə 3.745,0 mln. avro dəyərində investisiya ayrılmışdır. 2024-cü il üzrə ayrılan investisiyaların məbləği 199,0 mln. avro təşkil etmişdir. Ölkəmizin kredit portfeli 971 mln. avro təşkil edir. Kredit portfelində özəl sektorun payı 38 faizə bərabərdir.

Layihələr barədə ətraflı məlumat üçün: https://shorturl.at/sPTmn

AYİB-nin maliyyə sektoru üzrə fəaliyyət istiqaməti bank sistemində aparılan islahatlar, maliyyə siyasəti və respublikanın maliyyə institutlarına dair gələcək siyasətin təşkili və həyata keçirilməsinə yönəldilmişdir.

AYİB Azərbaycanda xüsusilə maliyyə sektorunun güclənməsi istiqamətində aktiv fəaliyyət göstərir. AYİB-nin maliyyə sektorunda fəaliyyəti banklara kredit xətlərinin təmin edilməsi, özəl bankların kapitalında iştirak, eləcə də dövlət banklarının özəlləşdirilməsi istiqamətində həyata keçirilir. AYİB-nin son zamanlar Azərbaycanda fəaliyyət sferası nəzərəçarpacaq dərəcədə yüksəlmiş və müxtəlif sektorlar üzrə həyata keçirilmiş əməliyyatların sayı kəskin şəkildə artmışdır.

AYİB-nin investisiya layihələrinin müxtəlif sektorları əhatə etməsinə baxmayaraq, dövlət sektorunda iri infrastruktur layihələrinin xüsusi çəkisi daha böyükdür. Bu isə sabit və çoxşaxəli özəl sektorun inkişaf prosesində aparıcı rol oynaması üçün zəruri iqtisadi, infrastruktur bazasının yaradılmasına olan ehtiyacı göstərir. Eyni zamanda neft gəlirlərinin artması nəticəsində hökumətin borcalma qabiliyyətinin əhəmiyyətli dərəcədə artması öz növbəsində hökumətin dövlət sektoru infrastrukturunda çox ehtiyac duyulan investisiyaları almaq imkanlarını artırmışdır.

Qeyd olunanlarla yanaşı, ölkəmiz AYİB-nin və onun fondlarının maliyyələşdirilməsində donor kimi yaxından iştirak edir. Belə ki, ölkəmiz tərəfindən 2011-ci ildə AYİB tərəfindən idarə olunan Çernobıl Sığınacaq Fondunun və Nüvə Təhlükəsizliyi Fondunun hər birinə 500,0 min ABŞ dolları məbləğində vəsait ayrılmışdır. “Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Azərbaycan - AYİB Əməkdaşlıq Hesabı ilə əlaqədar 2019-cu il noyabrın 22-də London şəhərində imzalanmış Əməkdaşlıq Saziş”i çərçivəsində 2021-ci ilin dövlət büdcəsindən AYİB-yə 2,0 mln. ABŞ dolları məbləğində vəsait ayrılmışdır.

---

[5] https://www.ebrd.com/content/dam/ebrd_dxp/assets/pdfs/country-strategies/azerbaijan/azerbaijan-country-strategy-2025.pdf
[6] https://www.ebrd.com/home/who-we-are/our-organisation/ebrd-governance-leadership/ebrd-board-of-directors.html
[7] https://www.ebrd.com/home/news-and-events/publications/financial-report/financial-report-2024.html
[8] https://www.ebrd.com/azerbaijan-data.html

Bununla yanaşı, “Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Azərbaycan Respublikasının Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Regional Tərəfdaşlıq Fondunda iştirakı ilə əlaqədar ianə haqqında 2019-cu il noyabrın 22-də London şəhərində imzalanmış Saziş” çərçivəsində ölkəmiz tərəfindən 2020-2023-cü illərdə Fonda 2,0 mln. ABŞ dolları məbləğində ianə ayrılmışdır.